BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№4 Sosial-siyasi elmlər seriyası 2012

UOT 1:001; 001.8

# SOSİAL PROBLEMLƏRİN ÖYRƏNİLMƏSİ VƏ NƏZƏRİ METODOLOJİ ASPEKTLƏRİ

**G.Q.MƏLİKLİ**
***Bakı Dövlət Universiteti***
***Guneldoktorant gmail.com***

*Sosial siyasətin əsas işi cəmiyyətdə sosial inkişafa nail olunmaq məqsədilə insanların daha yaxşı fəaliyyət göstərməsinə yardım etmək üçün onlara əlverişli şəraitin yaradılması, və yoxsulluq səviyyəsinin azaldılmasıdır. Sosial işin vəzifəsi çox anlayışlıdır. Məqalədə sosial işin müasir tədiqatlara əsasən tədqiq edilir. Məqalədə sosial işə yeni baxış sosial nəzəri metodoloji nəzəri aspekti öz təzahrünü tapır.*

**Açar sözlər:** sosial təminat problemləri, sosial siyasət, humanitar yardım

Sosial siyasət fəaliyyət olmadan reallaşa bilməz. Çünki sosial siyasət siyasi fəaliyyətin tərkib hissələrindən biridir və yalnız siyasi fəaliyyətdə reallaşır.

Sosial siyasət çoxcəhətli prosesdir, o, mürəkkəb struktura malikdir (3, 25).

Müasir sosial nəzəriyyədə onun müəyyənləşdirilməsi müxtəlif anlayışlarla təyin olunur. Belə ki, müxtəlif insanlara, qruplara, birliklərə və s. müəyyən köməkliklər göstərilir ki, bu da nəticədə həmin subyektlərin sosial imkanlarının gücləndirilməsinə şərait yaradır. Müxtəlif peşə sahibləri, təşkilatlar, sosial birliklər və s. cəmiyyətin sosial strukturunun formalaşmasında və sosial layihələrin reallaşdırılmasında yaxından iştirak edir və sosial tələbatların ödənildiyi əlverişli sosial mühitin yaradılmasına səbəb olur.

Tələbatların ödənilməsi təminat mexanizmi olub, vətəndaşların konkret sahədə özünü qabarıq şəkildə göstərən ehtiyaclarının ödənilməsi deməkdir. Şəxsiyyətin mövcudluğunun və həyat fəaliyyətinin stimullaşdırılması isə dövlətin sosial siyasət nəticəsində öz vətəndaşlarının hüquq və azadlıqlarını təmin edərək onların həyat şəraitini yaxşılaşdırmasıdır. Məhz bu fəaliyyət sosial iş hesab olunur.

Hələ eramızdan əvvəl 1750-ci ildə qədim Babilistan hakimi Hammurap-

pi tərəfindən tərtib edilmiş Ədalət Kontekstində həbs olunan insanların bir-birinə dəstək olmaları tələbi qoyulmuşdu. E.ə 1200-cü ilə aid edilən qədim İudeyanın yazılı mənbələrində isə qeyd edilirdi ki, Allah yəhudilərdən yoxsul və bədbəxtlərə yardım etmələrini gözləyir. Bu qanunlar əslində ehtiyacı olan şəxslərə filantorpiya (xeyriyyəçilik) əsasında yardımın göstərilməsini tənzimləyirdi ki, bu da sosial yardımın ilk formalarından birini təşkil edirdi (2, 306).

Sosial siyasətin həyata keçirilməsində sosial işçi yaxından iştirak edir. Sosial işçi anlayışı XIX əsrin sonlarından etibarən Amerika və Qərbi Avropada yayılmağa başladı. II Dünya müharibəsindən sonra müstəqil ixtisas kimi inkişaf etməyə başladı. Artıq dünyada sosial problemlərin araşdırılması, həll edilməsi istiqamətində işlərin görülməsini bu sahədə ixtisaslaşmış adamlara həvalə edilirdi.

Sosial iş bir peşəkar fəaliyyət kimi XIX əsrdə formalaşmağa başlamışdır. İlk dəfə 1898-ci ilin yayında Kolumbiya Universitetində sosial iş üzrə sinif açıldı. İngiltərədə də sosial iş demək olar ki, Amerika Birləşmiş Ştatları ilə eyni zamanda yaranmışdır (2, 307).

Sosial işçini peşəkar funksiyaların realizəsi ilə bağlı məqsədin qoyulması və vəzifələrin qısaca və dürüst ifadə edilməsi, bu funksiyaların həlli üçün elmi metodlardan istifadə edilməsi bacarığı; kollektivdə iş yoldaşları ilə birgə işləmək qabiliyyəti; idarəetmə metodları ilə tanışlıq, icraçıların işini təşkil etmək, idarəetmə qərarlarını tapmaq və qəbul etmək bacarığı; pedaqoji fəaliyyətin əsaslarına yiyələnmək; fənlərarası layihələrdə işləməyə hazırlıq; insanda mənəvi və cismani, bioloji və sosial əsasların qarşılıqlı münasibətlərinin, insanın təbiətə və texniki inkişaf dövründə insanın təbiətdə mövcudluğunda ziddiyyətlərə və böhrana münasibətinin mənasının başa düşülməsi səciyyələndirilməlidir (4 , 11, 12).

XX əsrin sonları və XXI əsrin əvvəlləri artıq bu termin Azərbaycanda da işlənilməyə başlandı. Hal-hazırda bu sahədə peşəkar işçilərə böyük ehtiyacı var. Erməni işğalı nəticəsində bir milyona yaxın vətəndaşımızın qaçqın düşməsi ölkədə sosial qayğıları daha da artırdığından, bu problemlərin həllində ixtisaslı sosial işçilərin xidməti əvəzsiz ola bilər. Dövlətimiz bu ehtiyacı hiss etdiyindən artıq müvafiq sahədə kadrların yetişdirilməsi üçün müəyyən addımlar atmağa başlamışdır.

İlkin olaraq sosial siyasi fəaliyyət könüllü, filantropiyalı və xeyriyyə köməyi formasında fəaliyyət növü kimi yaranmışdır.

Könüllü fəaliyyətin aşağıda qeyd etdiyimiz bir neçə istiqaməti vardır. Əlillərə, kimsəsiz qocalara, aztəminatlı ailələrə, qaçqın və məcburi köçkünlərə köməyin edilməsi, uşaq və gənclərə təhsil, idman, səhiyyə və digər sahədə köməyin edilməsi və s. könüllü fəaliyyətin istiqamətlərindən hesab edilir. Filantropiya isə ehtiyacı olanlara kömək məqsədilə həyata keçirilən könüllü fəaliyyətdir. Bu fəaliyyəti həyata keçirənlər isə filantrop adlanırlar. Xeyriyyə məqsədilə köməyin göstərilməsi də könüllülük prinsipi ilə həyata keçirilir.

Sosial iş ehtiyacı olanlara bir növ emosional olan şəxsiyyət münasibətlərində yaranır. Bu da öz növbəsində ayrı-ayrı sosial qrupların nümayəndələrinin yaranmasına səbəb olmuşdur.

Sosial iş sistemi ictimai (inqilabdan əvvəlki Rusiyada və ya Skandinaviya ölkələrinin müasir təcrübəsində olduğu kimi), eləcə də dövlət xarakteri (sosial təminatın Sovet modelinə xas olduğu kimi) kəsb edə bilər. Müasir şəraitdə xeyriyyəçilik sahəsində xüsusi və ictimai təşəbbüslərin artması Rusiyada sosial iş sistemini dövlət-ictimai sosial iş kimi səciyyələndirməyə imkan verir (4, 15).

Almaniyada sosial işçi məktəb ştatına daxil edilmişdir və o, imkansız ailələrlə, zəif şagirdlərlə işləyir, asudə vaxtın səmərəli keçirilməsi məqsədilə, valideynlər də cəlb olunmaqla, uşaq birlikləri yaradır (4, 35).

İstənilən inkişaf etmiş ölkələrin tarixində sosial işin növləri, formaları və sosial problemləri arasında əlaqə tapmaq mümkündür. Sosial işin müxtəlif növlərinin yaranması əsasən ölkənin inkişafının mədəni və milli xüsusiyyətləri ilə şərtlənir. Bura eyni zamanda müxtəlif sosial institutların qarşılıqlı əlaqəsi, ictimai düşüncənin, mədəniyyətin, elmin və təhsilin inkişaf səviyyəsi də təsir edir.

Artıq bu sahədə əldə edilən təcrübələrin nəticəsində hər bir sosial fəaliyyətin növləri üzrə olan şərtlər də konkretləşdiriləcəkdir. Bura müxtəlif sahələr (respublika səviyyəsindən yerli səviyyəyə kimi), o cümlədən, siyasi, iqtisadi, sosial-psixoloji və etnik-milli sahələr də daxildir. Müvafiq halda sosial institutlara və sosial işin reallaşdırma metoduna bir vasitə kimi baxmaq lazımdır.

Bu əlaqədə sosial xidmətin və sosial siyasi fəaliyyətin praktiki təşkilinin əsasının ayrılması mühüm əhəmiyyət kəsb edir. Sosial-siyasi fəaliyyətin müxtəlif formalarının və növlərinin təsnifatlandırılması əsasında müxtəlif əsaslar yarana bilər. Məsələn, müəyyən insanın və ya qrupun fəaliyyəti ilə, digər xidmətlərlə, təsisatlarla və təşkilatlarla əlaqəli işləri nümunə göstərmək olar. Birinci halda, insan problemlərinin xarakteri haqqında (boşanma, iş yerinin itirilməsi, yaxınlarının ölümü, əlillik və s.), digər halda müştərilərin xüsusiyyətləri haqqında danışmaq olar. Müştərilərin xüsusiyyətləri haqqında danışarkən ilk növbədə onun timsalında cəmiyyət, fərd və qruplar nəzərə alınır.

İkinci halda, fəaliyyət sferası üzrə məsələlərlə bağlı söhbət gedərkən, digər xidmətlərlə olan (təsisatlar, assosiasiyalar və s.) qarşılıqlı təsir ilə bağlı problemlər nəzərə alınır. Digər tərəfdən bu təşkilatların statusları haqqında danışarkən bəzi məsələlərə diqqət etmək lazımdır. Əsas kimi müştəri anlayışını götürsək, bu zaman aşağıdakı xidmətlər haqqında danışmaq mümkündür:

1. Əhaliyə sosial köməyin əsas məqsədləri aşağıdakılardan ibarətdir:

a) sosial risk qruplarının və ailələrin müəyyənləşdirilməsi. Onlara aşağıdakılar aid edilir: çoxuşaqlı, tamamlanmamış, tələbə ailələri; əlillərə malik ailələr; qeyri-əlverişli yaşayış şərtlərində yaşayanlar; tənhalar; yaşlılar;

b) müəyyən ailə və qruplar üzrə maddi, tibbi, hüquqi, psixoloji-pedaqoji, sosial məişət və digər zəruri köməyin göstərilməsi;

v) yaşlıların və köməyə ehtiyacı olan uşaqların müəyyənləşdirilməsi, onların qarşılaşdıqları çətinliklərdə dəstəklənməsi, müdafiəsi, reabilitasiyası;

q) zəruri hallarda bu məqsəd üçün mütəxəssis psixoloqların, pedaqoqların və digərlərin cəlbi.

2. Sosial bərpanın əsas məqsədi çətin həyati vəziyyətə düşənlərə sosial kömək etməkdən ibarətdir. Bura təcridxanadan qayıdanlar, tərbiyəvi təhsil və müalicə-profilaktika təsisatlarından qayıdanlar aiddir.

3. Məsləhət xidmətləri vasitəsilə müxtəlif növ ailələrə köməyin göstərilməsi (bura tanışlıq, tibbi kabinetlər, pedaqoji xidmətlər və s. aiddir) ;

Qeyd etmək lazımdır ki, fəaliyyət sferasının əsası kimi aşağıdakı xidmətlər göstərilə bilər:

- Sosial məişət xidmətləri: bu xidmətin əsas məqsədi yaşlı, tənha, əlil insanlara təqdim olunan xidmətin genişləndirilməsidir. Müvafiq kateqoriyadan olan insanlara xüsusi yaşayış evlərinin tikintisinə kömək, əlillərə protez-ortopedik təminat sisteminin təkmilləşdirilməsi və inkişafı.

- Ailə istirahəti: Onun əsas məqsədi ailə turizminin, ekskursiyalarının, ailəvi istirahətin təşkili, ailəvi istirahət mərkəzlərinin, klublarının və s. yaradılmasının stimullaşdırılması.

- Nizam-intizamdan yayınanların sosial profilaktikası: (bu prosesin əsas məqsədi cinayətkarlığın, alkoqolizmin, narkomaniyanın, qanun pozuntularının azyaşlılar arasında qarşısının alınması) təhsil müəssisələrində azyaşlıların profilaktika sisteminin yaradılması və fəaliyyət göstərməsinin dəstəklənməsi və s.

Sosial xidmət təsisatlarının fəaliyyətinin əsaslarını hüquqi vəziyyət təşkil edir. Fəlsəfi və sosial psixologiyanın bəzi prinsipləri sosial-siyasi fəaliyyətin metodoloji prinsiplərinin əsası kimi çıxış edir. Determinizm prinsipi, qnoseoloji yanaşma prinsipi, fəaliyyətin və düşüncənin vahidlik prinsipi belələrindəndir.

Beləliklə, sosial-siyasi fəaliyyət dinamik sistem kimi iki əsas bölmədən ibarət ola bilər:

1) Nəzəri-metodoloji (fundamental metodologiya, qanunlar, aparat, kateqoriya)

2) Tətbiqi (sosial-praktiki sahə, nəzəri və empirik biliyin idarəetmə əlavəsi, cəmiyyətdə sosial problemləri həll etmək imkanlarına malik elmi təmi nat).

Sosial siyasət sferasının praktiki fəaliyyəti çoxtərəflidir. Cəmiyyətin təşkilinin aşağı səviyyəsində (fərd, sosial qrup və s.) o, özündə aşağıdakıları ehtiva edir: şəxsiyyət və qruplar üzrə münasibətlərin tənzimlənməsi; sosial xidmətin təşkili; münaqişələrin lokallaşdırılması və xəbərdar edilməsi, sosial məsləhət və şəxsiyyətin tələbatları və maraqlarının, dəyərlərinin, hiss və fikirlərinin nəzərə alınması.

Şəxsiyyət və qruplar arasındakı münasibətlərin tənzimlənməsi cəmiyyətin təşkilində əsas amil hesab olunur. Belə ki, cəmiyyət sırf insanlar arasındakı münasibətlər sferası olduğu üçün bu münasibətlərin təkmil olması vacibdir.

Sosial xidmətin təşkili cəmiyyətdə sosial tələbatların ödənilməsi sahəsin-

də vətəndaşlara göstərilən təhsil, səhiyyə, mədəni və s. sahədə xidmətləri özündə ehtiva edir.

Münaqişələrin lokallaşdırılması, şəxsiyyətin maraqlarının, dəyərlərinin nəzərə alınması da sosial fəaliyyətin tərkib hissələrindən biridir. Burada cəmiyyətdə sağlam sosial mühitin yaradılması, şəxsiyyətin formalaşması üçün şəraitin təşkil edilməsi və s. əsas götürülür.

Bundan başqa sosial siyasi fəaliyyətin humanizm və humanizmin mahiyyəti barədə danışmaq lazımdır. Ümumiyyətlə, ədəbiyyatlarda humanizm kateqoriyası geniş tətbiq olunur. Adətən o, insanpərvərlik, mehribanlıq və xeyirxahlıqla ifadə olunur. Humanizm fransız sözü olub ("humanisme") insanlıq, insanları sevmək deməkdir. Humanizm - fərdin və cəmiyyətin rasional və emosional sferasına istiqamətlənir. Bu ideya və təsəvvürlərin ümumi sistemi olmaqla, insan şəxsiyyətinin özünü qiymətləndirir, onun azadlıq üzrə hüququnu, xoşbəxtliyini, inkişafını və öz imkanlarını inkişaf etdirir. Məşhur humanist filosof Piter Singer qeyd edirdi ki, humanistlər digər canlılara qarşı həyata keçirilən qəddar istismara qarşı çıxmalıdır.

Humanizm dünyagörüşü insan hüququnun ayrılmaz hissəsidir. O, insanın dinindən, irqindən, yaş və cinsindən, sosial xüsusiyyətlərindən asılı deyildir. Buna görə də, sosial iş humanizm mentalitetinin praktiki reallaşdırılmasını təmin edir.

Humanizm nöqteyi-nəzərindən iki xüsusiyyət müəyyənləşir:

Birincisi, sosial ədalət prinsipi humanizmin əsasını təşkil edir. Onun mahiyyəti, dövlətin və cəmiyyətin əsas öhdəliyi kimi hər bir fərdin uğurlu sosial inkişafını maksimal olaraq bərabər imkanlar çərçivəsində təmin etməkdir. Sosial ədalətliliyin dəstəklənməsi sosial sistemin dayanıqlığını, həyat qabiliyyətini, elastikliyini və s.-ni artırır.

İkincisi, humanizm prinsipi fərdin bütün hüquqlarının həyata keçirliməsini tələb edir. O, digər tərəfdən insan azadlığının bütün sferalarını məhdudlaşdırır. Humanizmə görə həqiqəti tapmaq bütün insanların təbii hüququdur. Amma həqiqəti tapmaq yolunda həyata keçirilən bütün üsullar humanist olmalı, heç bir mənfi vəziyyət yaratmamalıdır.

Sosial humanizm peşəkar etika prinsipləri baxımından tənzimlənir. Birinci halda, fəaliyyət nəticəsində müəyyənləşən etibarlı istifadə öhdəliyi. İkinci halda müştərilərin dini, milli, irqi, yaş, sosial və s. (qanun çərçivəsindən çıxmayan) xüsusiyyətləri nəzərdə tutulur.

Beləliklə, sosial siyasi fəaliyyətin peşəkar-mənəvi prinsiplərinin əsasında humanizm durur. Bu da öz növbəsində bütün sosial fəaliyyətin əsasını təşkil edir.

Eyni zamanda sosial iş sistemində sosial münasibətlərin spesifikasına xüsusi diqqət ayırmaq lazımdır. Sosial münasibət cəmiyyətin sosial strukturunda müəyyənləşən vəziyyətdir. Onların əsasını cəmiyyətdə ayrı-ayrı fərd və qrupların vəziyyətində müəyyən münasibətlər təşkil edir. Onlar daima iqtisadi, siyasi və digər ictimai qarşılıqlı əlaqədə mövcud olur.

Digər tərəfdən, sosial münasibət fərdlərin müəyyən dayanıqlı sistem əlaqələridir ki, onlar da cəmiyyətdə mövcud şəraitdə bir-biri ilə qarşılıqlı əlaqə prosesində formalaşır. Sosial münasibətlərin əsas tərkib hissələrindən biri şəxsiyyətlərarası münasibətlərdir. Bu münasibətlər sferasından asılı olmayaraq (rəsmi, qeyri-rəsmi, işgüzar və s.) sosial münasibətlərin formalaşmasında yaxından iştirak edir.

Sosial münasibətlərin müəyyənləşdirilməsində ciddi tələbat mövcuddur. Müvafiq yanaşma insanların sosial münasibətələrinin sosial işçilər tərəfindən ilkin olaraq nəzərə alınmasına imkan verir, ikincisi, sosial münasibətləri müəyyən ictimai mexanizimlərdə, sosial institutuların davamlı olaraq qarşıqlı təsirində özünü göstərir.

Ümumiyyətlə, sosial iş cəmiyyətdə sosial inkişafa nail olunmaq məqsədilə insanların daha yaxşı fəaliyyət göstərməsinə yardım etmək üçün onlara əlverişli şəraitin və geniş imkanların yaradılmasıdır.

Beləliklə, sosial iş modelinin formalaşmasında iki qrup faktorların nəzərə alınması zəruridir: ayrı-ayrı regionlarda müxtəlif qrup və kateqoriyaların həyat təminatı şərtləri və sosial mövqe üzrə xüsusiyyətlər; mövcud subyektlər və yenilər arasında yaranmış sosial münasibətlər.

Müasir Azərbaycan şərtlərində sosial iş dövlətin sosial siyasətinə əsaslanır. Buna görə də, bütün münasibətləri birinci, ikinci və üçüncü olaraq müəyyənləşdirmək olar.

İlkin münasibətlər - sosial münasibətdə yaranan münasibətlər olub, müştəri və onun yaxın ətrafı tərəfindən tərtib olunur. Bu münasibətlər lokal olub fərdlər arasında yaranır və formalaşır. Bu cür qrupların nümayəndələri sosial hadisələri eyni qiymətləndirirlər, eyni zamanda bu cür qrupların əsas xüsusiyyətlərinin öyrənilməsi müştərilərin problemlərinin müəyyənləşdirilməsinə və köməyin təşkilinə imkan verir.

İkinci növ münasibətlər - müxtəlif sosial qruplarda müştərilərin iştirakı ilə müəyyən olunur (bura, ərazi, dini, etnik və s. qrupları aiddir). Bu cür qrupların sosial-psixoloji xüsusiyyətləri müştərilərin problemlərinin yaranmasına təsir edir.

Üçüncü növ münasibətlər - fərdlərin vətəndaş rolları və onların öz imkanlarını reallaşdırma xüsusiyyətləri ilə şərtlənir. Müvafiq prosesə bir çox tədqiqatçılar müştərinin problemlərinin əsas xüsusiyyətlərinə sosial münasibətlərin təsiri kimi baxırlar. Onlar qeyd edirlər ki, sosial işin əsasını müxtəlif növ münasibətlərin xüsusiyyətlərinin uçotu təşkil edir. Birinci növ münasibətlərdə yaranan problemlər kliniki-terapevtik müdaxilələri tələb edir; ikinci növ münasibətlərdə - təşkilatı dəyişiklikləri; üçüncü növ isə – yeni dəyərlərin və sosial siyasətin formalaşmasını tələb edir. Buna görə də sosial işin formalaşdırılması məqsədilə bu münasibətlərə kompleks halda baxmaq lazımdır.

Sosial həyat insanlara sosial işin reallaşdırılma üsullarının seçimini şərtləndirir. Bu baxımdan sosial münasibətlər sosial işin əsas tərkib hissəsi kimi

çıxış edir. Sosial işin optimallaşdırılması sosial həyatın mədəniyyətinin artırılmasına imkan verir. Sosial işin önündə dayanan məsələlərin həlli müxtəlif üsullarla əldə olunur.

- birincisi, planauyğun və ciddi nəzəri və metodoloji məsələlərin hazırlanması;
- ikincisi, müxtəlif regionlarda və xaricdə sosial işin təşkilinin öyrənilməsi, sosial xidmət mərkəzləri modelinin işlənilməsi;
- üçüncüsü, sosial siyasi fəaliyyət üzrə məsələlərin həlli digər elmlərin köməyi ilə həyata keçirilə bilər. Onlar digər elmlərlə sıx bağlıdır (məsələn, politologiya, psixologiya, pedaqogika, fəlsəfə və s.).

Sosial problemlərin öyrənilməsində multiparadiqmalı yanaşmanın tətbiq imkanları sosial problemlərin sosiologiyası, bir sıra məktəb və istiqamətlərin iki əsas nəzəri paradiqması - obyektivist və subyektivist yanaşmalar ilə bağlıdır.

Obyektivist və faktualist yanaşma XIX əsrdə müsbət ənənələr kimi üzə çıxmışdır. Sosial problem anlayışı dedikdə cəmiyyət həyatını məhv edən real mövcudluq və şərait nəzərdə tutulur. Obyektivist yanaşmanın müəyyənləşdirdiyi nəzəriyyə sosial problemi sosial patologiya, yenidən təşkil (E.Dyurkqeym), sosial institutların disfunksiyası və deviant davranış (T.Parsons, R.Merton), sosial qruplar arasında münaqişə (K.Marks və b.) kimi nəzərdən keçirir. Obyektivistlərin diqqəti daha çox mövcud vəziyyətin təsvirinə, onun yaranma səbəblərinə cəmlənmişdir.

Subyektivistlərin hesab etdikləri kimi sosial problemlərin yaranması üçün ilkin zəmin mövcuddur. Subyektivin ənənələri özünə münaqişə dəyərliliyi kimi yanaşmanı (R.Fuller, R.Mayers), problemin kollektiv müəyyənləşdirilməsini (Q.Blumer), stiqmatiza (Q.Bekker, E.Demart) sosial konstruktivizmi (M.Spektor, D.Kitsyuz və s.) seçmişdir. Subyektivistlər hesab etmişlər ki, cəmiyyət sosial problemlərin mövcudluğunu qəbul etdikcə, o onun üçün mövcud deyildir.

Eyni zamanda R.Fuller və R.Mayers (1941) üçüncü yanaşmanın əsasını qoymuşlar. Onlar belə bir fikir irəli sürmüşlər ki, hər bir sosial problem öz strukturuna malikdir və obyektiv şərtlərdən və subyektiv müəyyən etməkdən ibarətdir. Obyektiv şərtlər anlayışı altında onlar nəzərdə tutulmayan vəziyyəti, subyektiv şərtlər anlayışı altında fərdlər tərəfindən dərk edilmiş, onların dəyərlərinə təhlükə yaradan vəziyyəti başa düşürdülər.

Sosial problemlər daha çox aşağıdakılarla bağlıdır:
- birincisi, sosial sahə səviyyəsinin qarşılıqlı təsiri ilə;
- ikincisi, sahənin mövcud vəziyyəti ilə;
- üçüncüsü, sosial sahənin mürəkkəblik səviyyəsi ilə.

Sosial problemin mürəkkəbliyinin müəyyənləşdirilməsi üçün sistem modeli cəmiyyətə üç səviyyədə baxılmasını təklif edir: makro,-mezo-və mikrosəviyyə. Sosial problemlər bu səviyyələrin istənilən birində baş verməklə, onun əsas xüsusiyyətlərini, miqyasını, lokallaşdırma yerini, sosial nəticələrini və s. müəyyən edir. Mikrosəviyyədə baş verən sosial problemlər kiçik və tez

həll olunandır. Bu yalnız müəyyən çərçivədə baş verir və vaxtında aradan qaldırılırsa, irimiqyaslı mənfi nəticələr vermir. Lakin bu problemin həll edilməməsi nəticədə mezosəviyyəyə keçərək daha böyük problemlərə yol açır, problemi daha böyük sferaya daşıyır. Makrosəviyyəli problemlər isə daha böyük müstəvidə yaranır və onun həlli sırf sosial idarəetmədə köklü dəyişikliklərin olmasını tələb edir.


## ƏDƏBİYYAT

1. Məlikova M. Dövlət və hüquq nəzəriyyəsi. Bakı: Maarif, 1979, 341 s.
2. Rəcəbli H. Azərbaycan Respublikasının sosial müdafiə sistemi. Bakı: MBM, 2012, 408 s.
3. Rəcəbli H. Azərbaycan Respublikasının sosial siyasətinin transformasiyası və komporativ təhlili. Bakı: Gənclik, 2003, 371 s.
4. Sosial işin əsasları /Müntəxəbat/ 1 hissə, Bakı: BDU, 2006, 359 s.
5. Социальная политика; М: Просвещение, 2003, 548 с.
6. Social work practice. Second edition Carol H. Meyer copyright 1970, copyright 1976 by the free press. A division of Macmillan publishing Co., ing,. Printed in the United States of America; 268 p.


## ТЕОРЕТИКО-МЕТОДОЛОГИЧЕСКИЕ АСПЕКТЫ ИЗУЧЕНИЯ СОЦИАЛЬНЫХ ПРОБЛЕМ


**Г.Г.МЕЛИКЛИ**



**РЕЗЮМЕ**

Основная задача социальной политики, это повышение жизненного уровня граждан, уменьшение нищеты населения. Практическая деятельность социальной работы многогранна. В статье предложены концепции и некоторые практические наставления, которые анализируются в сопоставлении с состоянием современного исследования социальных проблем. В статье нашли свое отражение новый взгляд и положение на социальные проблемы с теоретико-методологической и практической сторон.



**Ключевые слова:** проблемы социального обеспечения, социальная политика, гуманитарная помощь


## THE THEORETICAL AND METHODOLOGICAL ASPECTS OF THE STUDY OF SOCIAL PROBLEMS


**G.Q.MALIKLI**



**SUMMARY**

The ultimate goal of social policy is the improvment of the living standards of citizens and relief of poverty. The activity of social work is multilateral. The article analyzes the proposed concept in comparison with the present study of social problems and a number of practical advantages. Modenn approaches and theses on social problems are reflected from theoretical-methodological and practical points of view in the article.



**Key words**: problems of social security, social policy, government, humanitarian aid